# BİR ARZUM VAR ÜRƏYİMDƏ...



*Nəcməddin MÜRVƏTOV*

### HƏRƏ ÖZÜ ÜÇÜN

Qazancı düşünür indi çoxu, çox
Acizin qeydinə zərrə qalan yox.
Mal, sərvət toplaya hər gün harın, tox.
Yalana qurşanıb, qoyub haqq, düzü,
"Hərə öz önünə hey eşir közü".

Mininin payını təkcə, tək biri
Basıb qamarlaya, "süprülə yeri".
Qurur bundan ötrü plan, tədbiri.
Yox abır-həyası, sırtılıb üzü,
"Hərə öz önünə hey eşir közü".

Duranlar maraqda pusanlar ki, var
Sanki ovçulardır gözləyən şikar.
Gördü nə, götürüb aradan çıxar.
Məəttəl qalmaqla göz döyər yüzü,
"Hərə öz önünə hey eşir közü".

Var elə utanıb qızarmır da heç,
Demir layiqliyə- buyur, önə keç.
İki əl qaldırır, deyir məni seç.
Guya əvəzsizdir, təkdir, tək özü,
"Hərə öz önünə hey eşir közü".

Çaşdırır qananı, Vallah, bu əhval,
Çarəsi susmaqdır, dayanmaqdır lal.
Görür ki, qarışıb pis haram, halal.
Nə mənə, yada sal Quranı, cüzü,
"Hərə öz önünə hey eşir közü".

13.05.2025

### MƏN "O MƏN" DEYİLƏM

Sevgim qanad verib duyğularıma,
Mən indi əvvəlki "o mən" deyiləm.
Köçüb gerçəyimdən uyğularıma,
O əngin göylərdən enən deyiləm.

Sarıb varlığımı bir sirli əhval,
Quruyub nitqim də, sanki lalam, lal.
Qəlbimi ovudur təkcə, tək xəyal,
Sorsan, nə danışıb, dinən deyiləm.

Başımda şimşək tək çaxır həsrətim,
Gözümdən yaş olub axır həsrətim,
Cismimi yandırıb, yaxır həsrətim,
Elə od almışam, sönən deyiləm.

Sahiblik eyləyir bu hiss ruhuma,
Yox başqa heçcə nə ürək, ruh uma.
Tanrımdan diləyim vüsal arzuma,
Yetməsəm, çatmasam gülən deyiləm.

Dəlisov sevdamdan gün-gün, anbaan
Artsa da əzabım, üzülsə də can,
Zərrə düşünməyib çətin, nə asan,
Bu yoldan çəkilən, dönən deyiləm.

25.04.2025

### BELƏDİR

Bitmir ki heç bər-bəzəkli reklamı,
Ucuzunu baha sata ,sırıya.
Ağzı açsa söz-sovunun davamı,
Gəlir bundan qazanc tuta, yarıya.

Fürsət düşsə "harda aşdır orda baş",
Olmağıyla önə çıxa görünə.
Bu əhvaldan ətraf tamam qalır çaş,
Xəcalətli,həm də onun yerinə.

Fırlanmaqla müdam ara barədə,
Matdım-matdım onun,bunun üzünə.
Baxır,qoyur kimlərisə girə də,
Öz məkriylə əyri deyib düzünə.

Soxulmaqla imkanlının yanına,
Elə durur guya onla görüşür.
Beləliklə şəkillənə,tanına,
Rəylər yazır,saysızlarla bölüşür.

Məngirləyib başqasından olanı,
Təqdim edir utanmadan uğuru tək.
Üzə çıxıb neçə kərə yalanı,
Xislətidir etməz bunu şəksiz tərk.

Şərəfsizlik edir fikri,cəhd-səyi,
Beləliklə qazanmağa "şərəf-şan".
Qorxa-qorxa səksəkədə ürəyi,
Min yol ölüb-dirilməklə hər bir an.

Bitmir ki, heç bər-bəzəkli reklamı,
Ucuzunu baha sata, sırıya.
Ağzı açsa söz-sovunun davamı,
Gəlir, bundan qazanc tuta, yarıya.

26.04.2025

### ÇAL

Tarixlərdən gəlir səsi,
Hayqırtısı, zümzüməsi,
El ruhundan zil, bəm, pəsi,
Qəlb titrədən xoş avazı,
Çal, dilləndir telli sazı.

Al əlinə köksünə sıx,
Gəşt etməyə meydana çıx.
Hikmətinlə hədyanı yıx,
Gözündə qala murazı,
Çal dillədir telli sazı.

Çal Ələsgər, Alı kimi,
Sözün Rüstəm Zalı kimi,
Bəhsin Şəmşir balı kimi.
El sehrdən qala razı,
Çal, dillədir telli sazı.

Ədaləti gətir yada,
Kərəm üçün yetə dada.
Qara keşiş düşə oda,
Kül edə bu sehrbazı,
Çal, dillədir telli sazı.

Çal, dinləyə Xudafərin,
O tay, bu taydan afərin
Eşit, əzabını nəhrin
Bitir, oxşa Xan Arazı,
Çal, dillədir telli sazı.

Çal, Koroğlu havalana,
Dəliləri sıralana,
Aşıq Cünun, Nigar ana,
Səsləyə cəngə Eyvazı,
Çal, dillədir telli sazı.

Çal, dayanma, çal, cəngi çal,
Tut zamanda ahəngi, çal.
Qoyaq yağı köksünə xal,
Çaş-baş sala qışı, yazı,
Çal, dillədir telli sazı.

Çal ki uyam, şikəstə çal,
Asta, aram, ahəstə çal,
Çevir məni sərməstə, cal.
Qoyma, qardaş, yox, tamarzı,
Çal, dillədir telli sazı.

03.05.2025

### ALLAHIM

Bir arzum var ürəyimdə böyük arzum,
Nə olar məni murazıma yetir, Allah.
Rəva bil ki gülə üzə bəxt ulduzum,
Köksümdəki nisgilimi bitir, Allah.

Qanad taxıb sevincimdən uçum göyə,
Göz yaşımla "şükür","şükür" deyə-deyə.
Ruhum sənin bu lütfünü səssiz öyə,
Yaşamıma xoş əhvalı gətir, Allah.

Fərəhimə şərik edim hər bir kəsi,
Sənə böyük inamımdan açım bəhsi.
Edim bəyan xoşbəxtliyə olan bəsi,
Qur üstümdə pənahından çətir, Allah.

Yetişməyə istəyimə səndən "ol"-da,
Ver nə qədər ön, arxada,sağda ,solda.
Birər-birər, uğuruma gedən yolda,
Bədlikləri ilim-ilim itir, Allah.

Çin etməsən qəlbimdəki hər niyyəti,
İnanıram kama çatar bu da qəti.
Mədhi üçün bəxşin ola xoş haləti,
İlham coşa yazam min-min sətir, Allah.

25.05.2025

### OL HAQQIN ADAMI

Dəyişəndir gərdiş,dövran,
Ələ düşən az-çox imkan,
Olmaq üçün əsl insan,
Olma zəmanə adamı,
Ol təkcə haqqın adamı.

Sözünü de üstündə dur,
Ədalətlə işini qur,
Söylə düzü kim nə sorur,
Olan düşüncənin tamı,
Ol təkcə haqqın adamı.

Diqqət kəsil kim nə desə,
Ayır onu,düzə nəhsə,
Nadanlarla girmə bəhsə,
Vaxtın boş ötə rəvamı?
Ol təkcə haqqın adamı.

Əmin olsan şəksiz, yəqin,
Bildiyinlə danışıb din,
De,doğrunu eylə təlqin,
Gəldikcə dərkdən davamı,
Ol təkcə haqqın adamı.

Dürüst olmaq deyil asan,
Az söz-sova qulaq asan,
Şər önündə durub sussan,
"Xeyir" deməz gör cəfamı?
Ol təkcə haqqın adamı.

Dəyişəndir gərdiş,dövran,
Ələ düşən az-çox imkan,
Olmaq üçün əsl insan,
Olma zəmanə adamı,
Ol təkcə haqqın adamı.

21.05.2025

### KASIBLIQ

Kasıblıq dövlətdir elə,
Qəlbində sonsuz həsrətdən.
Bax ki, saysız dilək dilə,
Gəlmirmi gen-bol xiffətdən?

Az olurmu arzularda,
"Olar", "olmaz" zənn-gümanın.
Yetmək üçün bir murada,
Həzər, minnət, and-amanın.

Xırda istək dönür daha,
Hey baxırsan zirvəsinə.
Özünə artır qadağa,
Ona çatmaq həvəsinə.

Günün ötür axtarışda,
"Hardan tapım?", "edim necə?"
Düşünməkdən ağlın başda
Yol açır neçə sevincə.

Kasıblıq bol iş-güc, zəhmət,
Hər an üçün hesab-kitab.
Çətinlikdə hünər, qeyrət,
İnanılmaz dözümdür, tab.

20.05.2025

### NƏ XOŞ ƏHVAL

Çatdı, yetdi vüsal dəmi,
Bəy-gəlin könül həmdəmi .
Bitirdi qüssəni, qəmi.
Çin olur ən şirin xəyal,
Bax, məclisdə nə xoş əhval.

Uyub hər kəs çal-çağıra,
Üzlərdən sevinc yağır a,
Düşmüşük sanki nağıla.
Ürək deyir qal, burda qal,
Bax, məclisdə nə xoş əhval.

Saysız fərəh donu geyən,
Küy qaldıran, içən, yeyən,
Yetmir qulağa dil deyən.
Söz çatdırır baxışlar lal,
Bax, məclisdə nə xoş əhval.

Qohum-qardaş, ata-ana,
İntizar çoxdan bu ana.
Alqışı eyni ünvana
Söyləyir, dillərində bal,
Bax, məclisdə nə xoş əhval.

Arzumuz tək-bu cüt bala,
Diləkdən kam ala-ala,
Bir ömürlük qoşa qala.
Qəlblərdə bu istək, amal,
Bax, məclisdə nə xoş əhval.

17.05.2025

### UTANIM SƏNİN YERİNƏ?

Bitib-tükənmir ki bəhanələrin,
Məndən gen dayanıb uzaq durmağa.
Güya dostlarıydıq uzun illərin,
Sanırdım kürəyim söykənib dağa.

Demə, lazımammış imkanımla çox,
Yetəm çətinndə, çatam dadına.
Sanki bu dünyada tamam yoxam, yox,
Düşmürəm aylarla indi yadına.

Zərrə darılmıram bu haldan, inan,
Bilirəm, "tək-tək"də olur etibar.
Dediyim budur ki, dinlə məni, qan,
Bil, o "tək-tək"lərdən qalmısan kənar.

Razı olmayacam yaxın durasan,
Dönmək fikrin olsa bir gün yanıma.
Xeyrini düşünüb oyun qurasan,
Hər an and içməklə min yol canıma.

Salam ver, salam al, dolanaq belə,
Tuş gəlsək hardasa biri-birinə.
Yox ki o hünərin, deyəm əhv dilə,
Özümdən utanam sənin yerinə.

*14.05.2025*

